**Auditor öz işini qurduqda aşağıdakı amillərə fikir yetirməlidir**

1). Məbləğindən asılı olmayaraq, pul vəsaitlərinin və ya digər əmlakın cinayət yolu ilə əldə edilməsi və ya terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı olmasına şübhə və ya belə şübhə üçün kifayət qədər əsaslar yaradan halların mövcud olması;

2). Qanunun 7.3-cü maddəsində nəzərdə tutulan dövlətlərin (ərazilərin) vətəndaşları ilə, qeydiyyat, yaşayış və ya əsas fəaliyyət yeri həmin dövlətdə (ərazidə) olan şəxslərlə, eləcə də göstərilən dövlətlərdə (ərazilərdə) qeydiyyatdan keçmiş bankda hesaba malik olan şəxslərlə əlaqədar pul vəsaitləri və ya digər əmlakla, məbləğindən asılı olmayaraq, hər hansı əməliyyatların həyata keçirilməsi;

3). Məbləğindən asılı olmayaraq, xarici dövlətlərin siyasi xadimlərinin pul vəsaitləri və ya digər əmlakla əməliyyatları;

4). Məbləğindən asılı olmayaraq, Azərbaycan Respublikasının yurisdiksiyasından kənardakı anonim hesabdan pul vəsaitlərinin daxil olması və ya Azərbaycan Respublikasının yurisdiksiyasından kənara anonim hesaba pul vəsaitlərinin köçürülməsi;

5). Müştəri və ya benefisiarla bağlı əvvəllər təqdim edilmiş eyniləşdirmə məlumatlarının doğru olmamasının aşkarlanması;

6). Əməliyyatın tərəflərini Qanunla müəyyənləşdirilmiş qaydada dəqiq eyniləşdirmək mümkün deyilsə;

7). Müştəri və ya benefisiar barədə eyniləşdirmə məlumatlarının təqdim edilməsindən imtina edilirsə;

8). Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının aidiyyəti qətnamələrinə, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən siyahısı müəyyən edilmiş şəxslərlə əməliyyatlar.

**Auditor aşağıda göstərilən funksiyaları həyata keçirməlidir**

1). Müştəri və benefisiarın eyniləşdirilməsi və verifikasiyası;

2). İşgüzar münasibətlərin məqsədi və mahiyyəti barədə məlumatın müştəridən əldə edilməsi və həmin məlumatların mütəmadi qaydada yeniləşdirilməsi;

3). Yüksək riskli əməliyyatlara dair əlavə eyniləşdirmə tədbirlərinin tətbiq edilməsi;

4). Müştərinin və ya benefisiarın xarici dövlətlərin siyasi xadimlərinə aid olduğunun müəyyən edilməsinə dair tədbirlərin görülməsi;

5). Bütün mürəkkəb, iri həcmli qeyri-adi, habelə açıq aşkar iqtisadi və ya qanuni məqsədi olmayan əməliyyatları təyinatının və mahiyyətinin aydınlaşdırılması, bununla əlaqədar yazılı hesabatın tərtib olunması;

6). Müvafiq sənədlərin ən azı beş il müddətində saxlanılması;

7). Qanunla tələb olunduqda daxili nəzarət sistemlərinin hazırlanması və tətbiqi.